# KEMEL TOKAYEV: DETEKTİVİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Seyidnisə Lətifli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan
E-mail: seyidnise.letifli@mail.ru

*https://doi.org/10.59849/iscapltmt.2024.54*

**Xülasə**. Dünyada baş verən cinayət proseslərinin artması ədəbiyyatda cinayət mövzularının yaranmasına zəmin yaratmışdır. Bu problem dövrün ədiblərini narahat etmiş və cinayət hadisələrinin qarşısının alınması üçün cəmiyyətdə mövcud olan ziddiyyətli məqamların səbəblərini araşdıraraq öz əsərlərində əks etdirmişlər. Detektiv nəsrin dünya ədəbiyyatında sürətlə formalaşmasında tərcümə əsərlərinin, ədəbiyyatşünasların hazırlamış olduğu ümumi konsepsiya modellərinin tətbiq olunmasının böyük əhəmiyyəti olmuşdur. XIX əsrin ikinci yarısından etibarən dünya ədəbi-tarixi prosesində bir sıra dəyişikliklər baş vermiş, yeni istiqamətlər və janrlar yaranmışdır. Belə bir ədəbi-mədəni prosesin nəticəsində yaranan janrlardan biri də detektiv janrıdır. Detektiv nəsrin formalaşma və inkişaf xüsusiyyətləri müxtəlif ölkələrdə fərqlidir. Qazax ədəbiyyatında detektiv nəsrin əsası İkinci Dünya müharibəsi veteranı, jurnalist, yazıçı – Kemel Tokayev tərəfindən qoyulmuşdur. Kemel Tokayev qazax ədəbiyyatında böyük istedadı və peşəkar bacarığı sayəsində tərcümə və publisistikanı birləşdirərək nəsr sahəsində detektiv janrın əsasını qoymuşdur. Görkəmli ədib Qazax detektiv ədəbiyyatının formalaşmasına mühüm töhfələr vermişdir.
Məqalədə Kemel Tokayev detektivinin formalaşması və inkişafı, detektiv mövzuda qələmə aldığı əsərlərin xüsusiyyətləri, obrazlar sistemi tədqiq olunmuşdur.
**Açar sözlər:** Kemel Tokayev, detektiv, nəsr, obraz, janr

## Formation and development features of Kemel Tokayev' detective

**Seyidnise Letifli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS, Azerbaijan
E-mail: seyidnise.letifli@mail.ru

**Abstract**. The increase in criminal processes in the world has created the basis for the emergence of criminal themes in literature. This problem worried the writers of the time and, in order to prevent criminal incidents, they reflected them in their works by investigating the causes of the contradictory moments existing in society. The application of translated works and general conceptual models prepared by literary critics was of great importance in the rapid formation of detective prose in world literature. Since the second half of the 19th century, a number of changes have occurred in the world literary-historical process, new directions and genres have emerged. One of the genres that emerged as a result of such a literary-cultural process is the detective genre. The characteristics of the formation and development of detective prose are different in different countries. The foundation of detective prose in Kazakh literature was laid by the veteran of the Second World War, journalist, writer – Kemel Tokayev. Kemel Tokayev, thanks to his great talent and professional skills in Kazakh literature, combined translation and journalism and laid the foundation of the detective genre in prose. The outstanding writer made significant contributions to the formation of Kazakh detective literature. The article examines the formation and development of Kemel Tokayev's detective, the characteristics of his detective works, and the system of images.
**Keywords:** Kemel Tokayev, detective, prose, image, genre

Böyük ədəbi şəxsiyyətlər öz zamanlarının övladları olmaqla bərabər, həm də ədəbiyyat və mədəniyyətlərin zamanlarını yaradırlar. Tarixin və zamanın yetişdirdiyi elə şəxsiyyətlər var ki, onlar öz xeyirxah əməlləri, qəhrəmanlığı, istedadı və şəxsi mövqeyi ilə daim ürəklərdə yaşayır və tarixin silinməz səhifələrində xüsusi mövqeyə sahib olur. Belə şəxsiyyətlərdən biri də Kemel Tokayevdir. Qazax ədəbiyyatında detektiv nəsrin əsası İkinci Dünya müharibəsi veteranı, jurnalist, yazıçı – Kemel Tokayev tərəfindən qoyulmuşdur. Yazıçı özünəməxsus yaradıcılıq üslubu, elmi istiqaməti, dəst-xəti ilə Qazax ədəbiyyatında xüsusi mövqeyə malikdir.

Ədəbiyyat cəmiyyətin güzgüsüdür. Müxtəlif dövrlərin aktual problemləri daim elm və incəsənət insanlarını düşündürmüş və bu istiqamətdə işlərin aparılması yolunda əsərlər yaradaraq cəmiyyətə işıq tutmağa çalışmışlar. Ədiblərin bu sahədə fəaliyyəti nəticəsində həm incəsənət sahəsində, həm də elm sahəsində yeni növlər, janrlar, cərəyanlar, istiqamətlər və s. formalaşmışdır. Məhz bu fəaliyyətin nəticəsində ədəbiyyat hər zaman canlı qalır. Ədəbiyyat və cəmiyyət bir-biri ilə harmoniya təşkil etdiyinə əsasən deyə bilərik ki, sənət həyata estetik təsir bağışlayır. Bədii əsərlər həyat həqiqətlərindən qidalanıb hadisələrə təsir göstərərək insanın düşüncə tərzinin dəyişməsinə səbəb olur. Yazıçılar hər hansı bir bədii nümunə ilə insan qəlbini, ruhunu yeni ideallar ilə işıqlandırır, həyata baxış bucağını dəyişir. Nəticədə həyatdan alınmış hadisə bədii təsvir və boyalarla yenidən həyata qayıdır. Müəllif əsərdə təsvir etmiş olduğu hadisəni həm mənfi, həm də müsbət prizmadan təhlil edərək cəmiyyətdə mövcud olan ziddiyyətlərin həllində fərdin rolunu ön plana çıxarır. Tarixdə cinayətin tədricən artması, zaman keçdikcə çoxalması və s. bu kimi hadisələr ədəbiyyata təsirsiz ötüşə bilməzdi. Cəmiyyətdə əxlaq kodeksinin formalaşması nəticəsində günahkarların cəzalandırılması kimi məsələlər ön plana çıxdı. Hər bir kəs öz günahına görə məsuliyyət daşımalı idi. Cinayət ilə bağlı süjet və elementlərə antik ədəbiyyat, əfsanə və rəvayətlər, nağıllarda təsadüf edilir. Bu da detektiv nəsrin köklərinin qədim olmasından xəbər verir.

Detektiv mövzuda yazılmış əsərlərdə faktların məntiqi təhlili ilə gizli cinayətlərin açılmasından bəhs edir. Bu növdə yazılmış əsərlərdə konflikt, əsasən, ədalətin qanunsuzluqla toqquşması üzərində qurulur. Detektiv əsərlərin müəlliflərinin məqsədi, cinayətlərin sosial mənşəyini açıqlamaq, müəyyən əxlaqi məsələləri nəzərdən keçirmək və bu səbəbdən böyük ictimai və siyasi əhəmiyyətə, aktuallığa malik olan hadisələri geniş planda təsvir etməkdir [4, s.14]. Bu nəsr növündə yazılmış əsərlər cəmiyyətin bəşəri dünyagörüşünün formalaşmasında xüsusi əhəmiyyətə malikdir. Çünki bu mövzuda yazılmış əsərlər vasitəsilə dünyada gedən ictimai ziddiyyətlərin və antihumanist ideyaların elə zəruri problemləri gündəmə gətirilir ki, bu problemlər müasir oxucunu daha çox maraqlandırır və bu istiqamətdə yazılan əsərləri oxunaqlı edir. Detektiv əsərin əsas üstünlüyü tərkibində mürəkkəb və maraqlı tapmacanın olmasıdır, tapmacanın aşılması əsərin inkişafının əsas hərəkətverici qüvvəsidir [4, s.55].

Kemel Tokayev həyatında baş verən hadisələri, yaşadıqlarını bədii aləmə təqdim etməkdə, dolğun əsər yaratmaqda əsl ustadır. Onun yaradıcılıq istiqaməti 2 yerə ayrılır: publisistika və bədii yaradıcılığı. Bədii yaradıcılığını mövzu cəhətdən 3 qrupa bölmək mümkündür: uşaq ədəbiyyatı, Böyük vətən müharibəsi və detektiv. XX əsrin 50-ci illərində Qazax ədəbiyyatında detektiv nəsr formalaşmışdır. O, "Daşqın" ("Тасқын") povestini yazmaqla detektiv nəsrin əsasını qoyuşdur. Bu kitab 3 illik zəhmətin böyük nəticəsidir. Bu əsər yalnız qazax ədəbiyyatında deyil, Qırğızıstan, Özbəkistan, Monqolustan oxucularının da qəlbinə yol tapmışdır [7, s.116]. Yazıçı bundan sonra bir-birinin ardınca detektiv mövzuya həsr olunmuş maraqlı süjet xətlərinə malik əsərlər qələmə almışdır: "Gələcək haqqında düşüncələr", "Qaranlıq cığır", "Qış qaranquşu", "Sui-qəsd", "Gecə açılan atəş", "Sirli iz", "Damğalı qızıl", "Qırmızı komissar", "Cinayətkar kimdir?", "Sehrli" və s. kimi əsərlərini göstərmək mümkündür. Kemel Tokayev qazax ədəbiyyatında böyük istedadı və peşəkar bacarığı sayəsində tərcümə və publisistikanı birləşdirərək nəsr sahəsində detektiv janrının əsasını qoyub. Onun detektiv janrında olan əsərlərində hüquq-mühafizə orqanlarının təhlükəli fəaliyyəti, iş üsulları, istintaq hərəkətləri və s. geniş təsvir edilmişdir. Ədibin məhkəmə sənədləri ilə tanışlığının, hüquq-

mühafizə orqanları ilə yaxından əməkdaşlığının nəticəsi idi ki, əsərlərində də bu faktlardan, detallardan istifadə etmişdir. O, çox zaman milislərlə birgə əməliyyatlarda iştirak etmiş, cinayətkarların istintaq prosesini izləmiş, hətta onlar ilə birgə söhbətlər də aparmışdır. Bu səbəbdən təsadüfi deyildir ki, onun qələmə aldığı mövzular, obrazlar real faktlara söykənir. Əsərlərində asayişin keşiyində duran milis işçilərinin həyatı, onların cinayətkarlarla mübarizəsi, qorxmazlığı, peşələrinə olan ciddiyyəti və məsuliyyəti bədii boyalarla təsvir edilmişdir.

Ədibin əsərləri bədii dilinin axıcılığı, obrazların çoxşaxəliliyi, mövzusunun aktual olması, əhatə dairəsinin genişliyi, bədii cəhətdən zənginliyi, obrazların orijinallığı və mətn strukturu ilə seçilir. Hadisələr vahid problem ətrafında cərəyan edir. Müəllifin aydın, axıcı təhkiyə üslubu, əsərdə bəhs etdiyi hadisələrə yaxından bələd olması əsərlərinin uğurunu şərtləndirən başlıca meyarlardandır.

Onun detektiv əsərlərinin özünəməxsus xüsusiyyətlərindən biri hekayənin baş verdiyi məkanı, interyeri dəqiq təsvir etməkdir, ədəbi interyerin funksiyaları bir-biri ilə sıx bağlıdır və bir-birini tamamlayır. Əsər boyu ifşa olunan interyer detalları hekayənin mahiyyətini təqdim edir, psixoloji vəziyyəti göstərir, zaman və məkanın kəsişməsində insanla əşyalar aləmi arasında köklü əlaqənin sübutu ola bilər.

Kemel Tokayevin detektiv əsərləri insan təcrübəsini, hisslərini, emosiyalarını əks etdirməklə yanaşı, həm də cəmiyyətin sosial, iqtisadi, tarixi, milli və s. aspektlərini təhlil edir. Sosial toqquşmalar, obrazlararası daxili konfliktlərin təsvir olunması onun detektiv əsərlərinin psixoloji aspektlərinin güclü olmasını göstərir və nəticədə mətn psixoloji intensivlik əldə edir. O, yaratdığı obrazları təsvir edərkən onları ittiham etmir, o obraza dair hər detalı açıb göstərərək mənfi və müsbət surətləri seçməyi oxucunun öhdəsinə buraxır. Müəllif obrazların keçmişinə nəzər salaraq, onların psixoloji durumlarını təhlil edir. O, əsərdə bütün vəziyyətlərdə qəhrəmanlarının düşdüyü mühiti, onlara təsir edən amilləri, obrazın qarşılaşdığı bütün çətin, psixoloji durumlarda hər birinin xarakterini detallı şəkildə təsvir etmişdir. Yazıçı obrazlar vasitəsilə ictimai həyatı, insanın daxili aləmini, həyata baxışını, arzu və düşüncələrini açmağa nail olmuşdur. O, personajlarını şişirtmir, tərənnüm etmir, amma sadə zəhmətkeş insanlara, öz peşəsini dostluq və yoldaşlığa görə sevən insanlara, dövlət işinə, ictimai mənafeyə sadiq olan insanlara qarşılıqlı münasibətləri, psixologiyası ilə həqiqəti göstərə bilir. Müəllifin əsərlərinin ən mühüm dəyəri həyatın aktual problemlərini əsas hekayə xətti ilə əlaqələndirməsi, bununla da insanı tanıması, onun cəmiyyətlə münasibətini məharətlə təsvir etməsindədir. Müharibə illərində çekistlərin qəhrəmanlığı, əməkdaşların təhlükəli və maraqlı taleləri, cinayət işlərinin açılmasında polislərin çevikliyi və hərəkətliliyi yazıçının qaldırdığı əsas mövzulardır. Onun əsərlərində vətənpərvərlik motivləri yüksək dərəcədə hiss olunur. Kemel Tokayev roman, povest və hekayələrində qəddar cinayətkarların əsl obrazını, portretini, danışıq tərzini, dialoq quruculuğunu hərtərəfli təqdim etməyi bacarmışdır. Yazıçının əsərlərinin bədii xüsusiyyətləri, kompozisiya quruluşu dərindir. Onun əsərlərində cinayətkarın tövbəsi, cəmiyyətdə qəribə davranışların ifşası, ədalətsizliklə qanunsuzluq arasındakı ziddiyyətin müəyyən edilməsi, cinayətkarın tutulması başlıca məsələlərdəndir.

Kemel Tokayev həyatı dərindən bilməklə yanaşı, zəngin lüğətdən də böyük zərifliklə istifadə etməyi bacarırdı. Hansı əsəri götürməyinizdən asılı olmayaraq, mükəmməl fikrə aparan dərin bilik və yüksək mədəniyyət sayəsində həyatın özündə baş verən hadisələri qələmə almışdır. XX əsrin kriminal ədəbiyyatında hüquq müdafiəçiləri, çekistlər, partizan obrazlarının milli mahiyyətini ustalıqla dilə gətirən əsərlər yaratmışdır. Yazıçının əsərlərinin ən mühüm dəyəri onun həyatın aktual problemlərini əsas hekayə xətti ilə əlaqələndirməsi, bununla da insanı tanıması, onun cəmiyyətlə münasibətini məharətlə təsvir etməsidir.

Yazıçı Kemel Tokayev öz əsərlərində cinayətin baş vermə səbəblərini, əməliyyatçı və cinayətkarın davranışını, hadisə yerini, araşdırma üsullarını məharətlə oxucuya çatdıra bilmişdir. Onun əsərlərinin dili təmiz, dəqiq, kəskin, çevik, anlaşıqlı və çox zəngindir. Əsərlərində müəyyən macəra hekayəsi danışmır, hər şeyi öz canlı dili ilə təsəvvür edir. Personajlarını fərdiləşdirərək canlı

obrazlar kimi təsvir etmişdir. Kemel Tokayevin yaradıcılığının əsas xüsusiyyəti onun yaratmış olduğu yeni insan tipini qabaqcıl mənəviyyatı, parlaqlığı, zəkası, ideoloji zənginliyi ilə göstərə bilməsidir. O, oxucularına canlı xarakter, silinməz qəhrəman, xoş obrazlar göstərib. Hansı əsərini oxuyursan oxu, onlar həyatın özündən götürülmüş, təxəyyüldən doğulmamış real personajlardır, ağıllı insanlardır. Yazıçı əsərlərində bənzətmələrdən, epitetlərdən, müqayisələrdən məharətlə istifadə etmişdir.

Detektiv əsərlərdə süjetin əsasını istintaq təşkil edir. Əsərlərində istintaqı prosessual və kriminalistik baxımdan uğurla şərh etmişdir. Detektivin məqsədi baş verən hadisələri ardıcıllıqla izləmək və günahkarı təyin etməkdir. Polis detektivində sirrin açılması peşəkar polis əməkdaşlarının birgə fəliyyəti nəticəsində baş verir. Polis əməkdaşları bütün materialları toplayaraq ümumi qərara gəlib istintaq prosesini birlikdə aparırlar. Bu mövzuda yazmış olduğu əsərlərdə polis işçilərinin gündəlik işinin təsviri, cinayətkarın araşdırılması, istintaq prosesinin metodologiyası geniş təsvir olunur. "Polis detektivlərinin məqsədi cinayətkarı yaxalayaraq ədaləti bərpa etmək və dövləti təxribatlardan qorumaqdır" [2, s.28]. Onlar cinayətkarın və şübhəlilərin müəyyən edilməsində, məhkəmə qarşısında sübutların əldə edilməsində, cinayətkarın cəzalanmasında mühüm rol oynayırlar.

Ədiblər ictimaiyyəti davamlı inkişafa can atan cəmiyyətin həyatına öz zəkası, yaradıcılığı, konkret qənaətləri ilə təsir edən, onun istiqamətinə təsir edə bilən əsas qüvvədir. Məhz buna görə də bir ziyalı nümayəndəsinin həyatını öyrənmək, onun yaradıcılıq yolunun formalaşmasını, bununla da ədəbiyyata verdiyi töhfələri təhlil etmək, onun tərbiyəvi cəhətlərini üzə çıxarmaq, onlara qiymət vermək ən mühüm vəzifələrdəndir. Kemel Tokayevin əsərləri müasir qazax nəsrində ənənənin davamlılığını möhkəm şəkildə qoruyub saxlayır. Yazıçı özünəməxsus üslubu, yaradıcılıq xüsusiyyətləri ilə qazax ədəbiyyatının klassikləri arasında öz yerini əbədi tapmışdır.

**Ədəbiyyat**

1. Emsley, C., & Shpayer-Makov, H. (Eds.). (2006). Police detectives in history, 1750-1950. Ashgate Publishing, Ltd. 216 p.
2. Skogan, W. G., Van Craen, M., & Hennessy, C. (2015). Training police for procedural justice. Journal of experimental criminology, 11, c.319-334.
3. Tokayev, K. Gecə açılan atəş: povestlər. – Bakı: Qanun, 2022, 413 s.
4. Агеева, М. (2010). Концепция реальности в детективе «Полицейской процедуры» Эда Макбейн 2010. Вестник ВятГУ, с.210-220.
5. Токаев, К. Тасқын : повести и рассказ. – Алматы : Көркем әдебиет, 1958. 203 с.
6. Токаев, К. Түнде атылған оқ : повести. – Алматы : Жазушы, 1971. 227 с.
7. Шакиев М. Н. Наследие Кемеля Токаева и воспоминания современников //Известия Коми научного центра УРО РАН. 2022. №. 1 (53). с.116-119.
8. Həsənli, M. (2023). Smaqul Elubayın "Ağ çadır" romanında kosmos-xaos əvəzlənməsi. Müqayisəli ədəbiyyatşünaslıq, 18-24. doi:https://doi.org/10.59849/2663-4414.2023.1.18
9. Hasanli, M. A. (2024). Style Mosaic of the Mo Dern Kazakh Novel. Revista Universidad Y Sociedad, 16(3), 121-126. <Go to ISI>://WOS:001274914400013